**Zəfər.** Hünər dastanı yazanlar // Respublika. - 2024. - 20 sentyabr. - **№ 205**. - S. 21.

Lənkəran rayonu Cil kəndində boya-başa çatan Araz Namiq oğlu Həbibov da Vətən müharibəsi başlayanda minlərlə qəhrəman oğullarımız kimi odlu-alovlu səngərdə yerini tutub. İştirak etdiyi gərgin döyüşlərdə yağıya qarşı mərdliklə vuruşub, ona sarsıdıcı zərbələr vurmaqla canlı qüvvəsini, hərbi texnikasını məhv edib. Onun ölüm-dirim savaşlarındakı fədakarlığı həmişə əsgər yoldaşlarına nümunə olub. Suqovuşanın azadlığı uğrunda gedən ağır döyüşdə çəkinmədən, qorxmadan şəhidlik zirvəsinə ucalan, adını şanlı tariximizə yazan 18 yaşlı əsgər Araz Həbibov ölümündən sonra dövlət tərəfindən “Vətən uğrunda”, Laçının, Suqovuşanın azad olunmasına görə medallarına layiq görülüb.

Ürəklərdə yaşayaraq əbədilik qazanan şəhid Araz Həbibov Lənkəran camaatı, eləcə el-oba tərəfindən sonsuz ehtiram, sevgi və məhəbbətlə xatırlanır.

Bu günlərdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, icra aparatının məsul şəxsləri, hüquq mühafizə orqanlarının rəhbərləri, yerli ictimaiyyətin nümayəndələri və şəhid ailəsinin üzvləri qəhrəmanın doğma kəndindəki məzarını ziyarət etməklə önünə təzə gül dəstələri düzüblər. İcra başçısı şəhidin ailə üzvlərinin qayğı və problemlərini öyrənib.

Arazın taleyinə şəhidlik yazıldığı üçün ömrü çox qısa olsa da, indi bütün Azərbaycan onunla qürur duyur. Belə bir övlad tərbiyə edən valideyn dünyanın ən müqəddəsidir.

44 günlük haqq savaşımızda sinəsini Ana Vətənimizə sipər edib şəhidlik zirvəsinə ucalan Lənkəranın daha bir zəfər şəhidi Elmar Hikmət oğlu İbayevdir. Bu Vətən sevdalısının da uyuduğu müqəddəs yer ziyarət olunub. Həmçinin ziyarətçilər öz qəhrəman oğlundan qürurla söz açıblar. Elmar düşmən tapdağında olan Qarabağın azadlığını ən müqəddəs iş sayırdı. Qanlı-qadalı savaşda baş leytenant rütbəsində döyüşüb. İlk gündən düşmənlərin kabusuna çevrilən igid zabit 42 yaşında qəhrəmanlıq tarixi yazıb gedib. Şərəfli ölümü ilə bütün Azərbaycan xalqının ürəyində özünə əzəmətli adidə ucadan Elmar hər bir lənkəranlının iftixar mənbəyi, qürur yeridir.

Ölümsüzlüyə qovuşan Lənkəranın qəhrəman oğlu dövlət tərəfindən ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda" və digər medalları ilə təltif edilib.